# Soyuq ağıl və isti ürəklə...

## Məmməd Quliyev: “Səhnədən qorxmayan ifaçı yoxdur”

**Əslində Azərbaycanda incəsənət sahəsində ən xoşbəxt ”tayfa” musiqiçilərdir. Daha doğrusu, akademik musiqi ilə məşğul olanlar. Yəni musiqişünaslar, bəstəkarlar, dirijorlar, ifaçılar və b. Çünki tənqid olunmurlar. Heç bir ictimai rəy yoxdur onlar haqqında (Bu baxımdan ən bədbəxt ”tayfa” da yazarlar, xüsusilə də gənc yazarlardır).**



Bunun sirrini hələ də tam anlamış deyiləm. Anlamıram ki, bu toxunulmazlığı onlara (yaxud bizlərə) kim, nə zaman, hansı məqsədlə verib. Məhz bu səbəbdən hazırda istənilən ”ifaçı” ölkənin ən nüfuzlu səhnəsinə çıxıb Şostakoviç kimi bir bəstəkarın əsərini, həm də bəstəkarın özündən də məşhur olan əsərini ”zəlil” günə qoya bilir. Publika da heç nə olmayıbmış kimi alqışlayır, gül-çiçəklə yola salır həmin ”ifaçını”, hələ bu azmış kimi, onun haqqında resenziyalar da yazılır. Əslində günah özünü ”ifaçı” olduğuna inandıranlarda deyil. Əsla! Günah o səhnələri boş qoyanlarda, səhnələrin gerçək sahiblərindədir. Görünür ki, onların da həvəsi yoxdur artıq. Üzeyir bəy necə gözəl qeyd edib bir məqaləsində: **”Bülbülümüzdə həvəs yox, qarğamızda səs”.**

Bu günlərdə o səhnənin gerçək sahiblərindən birinin - Məmməd Quliyevin (Mamed müəllim kimi tanınan, əməkdar müəllim, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) professoru) qapısını döydüm müsahibə üçün. Belə şeyləri sevməsə belə, sağ olsun, təklifimi geri çevirmədi. Xoşbəxtlikdən həmin gün BMA-da həm də böyük pedaqoqun sinif konserti keçirilirdi. Tələbələrinin möhtəşəm ifalarını da dinlədikdən sonra konsertin yaratdığı xoş təəssüratla söhbətimizə başladıq.

**- Məmməd müəllim, bir dinləyici olaraq deyə bilərəm ki, konsert möhtəşəm idi. Bəs siz bir pedaqoq, çıxış edənlərin müəllimi kimi necə qiymətləndirirsiniz konserti?**

- Ümumiyyətlə, konsertin təşkili planlaşdırılmamışdı. Əvvəlcə Milli Konservatoriyadan təklif gəldi ki, orada konsert çıxışımız olsun. Mən də qərara gəldim ki, konsert dekabrın sonları olsun. Dekabrın 22-də Milli Konservatoriyada baş tutdu konsert. Daha sonra fikirləşdim ki, əgər orda çıxış ediriksə, niyə də BMA-da ikinci konsert olmasın? Dekabrın 27-ci bizim hörmətli rektor, xalq artisti Fərhad Bədəlbəylinin ad günüdür. Qərara gəldim ki, burda da konsert verək və konsertimizi ona həsr edək. Bilmirəm, konsert nə dərəcədə xoşunuza gəldi. Hesab edirəm ki, yaxşı keçdi. Doğrusu, bizim sənət, yəni ifaçılıq elə bir sənətdir ki, hər zaman ”daha da yaxşı ola bilərdi” düşüncəsi yaranır. Çünki ifaçılıqda sərhəd yoxdur. Hər ifanın daha yaxşı variantı mümkündür. Amma bir şey də var ki, bundan pis də ola bilərdi (gülür). Hesab edirəm ki, bu konsert uğurlu oldu. Məhz buna görə mən özümdə cəsarət tapıb səhnəyə çıxaraq bir-iki kəlmə söz deyə bildim.

**- Sizi qiyabi də olsa tanıyırdım. Amma yenə də söhbətimizə hazırlıq məqsədilə istədim haqqınızda bir az araşdırma aparım. Təəssüf ki, heç nə tapa bilmədim. Özünüz istəməmisiniz müsahibə verməyi, vikipediyanızın yaradılmasını, ya təklif olunmayıb? Axı siz yetəri qədər uğurları olan pianoçusunuz.**

- Ümumiyyətlə, mən sevmirəm belə şeyləri. Olub ki, təklif eləyiblər mən istəməmişəm. Bu barədə təvazökar insanam. İnformasiyaya gəldikdə isə, təhsilim haqqında danışa bilərəm. Musiqi məktəbindən sonra Asəf Zeynallı adına Musiqi Texnikumuna qəbul olmuşam. Orada oxuduğum illərdə də çox çıxışlarım olub. Birinci Respublika müsabiqəsində birinci yeri qazandım. Daha sonra Ramiz Məlikaslanovun orkestri ilə Raxmaninovun Birinci konsertini, Maestro Niyazinin dirijorluğu ilə Çaykovskinin konsertini ifa etmişəm. Həmçinin Yalçın Adıgözəlov, Rauf Abdullayev kimi dirijorlarla da çıxışlarım olub. Daha sonra 1980-ci ildə Konservatoriyaya (indiki Bakı Musiqi Akademiyası) Elmira Səfərovanın sinfinə daxil olmuşam. 1984-cü ildə buranı bitirdikdən sonra Elmi Şuranın qərarı ilə sənədlərim Moskva Konservatoriyasına təqdim olundu. Mən qabiliyyət imtahanlarını verdim və dahi pianoçu Lev Vlasinkonun sinfinə daxil oldum. Bəlkə onu çoxları tanımır, amma mən qeyd etmək istəyirəm ki, 1958-ci ildə Birinci Beynəlxalq Çaykovski adına festivalda birinci yeri Van Klibern, ikinci yeri isə məhz Lev Vlasinko almışdı. Mən onun sinfində 3 il təhsil aldım. Daha sonra qayıtdım Bakıya və 1987-ci ildən burada pedaqoq kimi çalışıram.

**- Siz həm də Zaqafqaziya müsabiqəsinin laureatı olmusunuz.**

- Bəli. 1981- ci ildə dirijor Rauf Abdullayev ilə birlikdə Yerevanda Zaqafqaziya müsabiqəsində çıxış elədim və 3-cü yerə layiq görüldüm. Bilirsiniz, mən o zaman 2-ci kursda oxuyurdum. Texnikumdan sonra (indiki A.Zeynallı adına Musiqi Kolleci nəzərdə tutulur) Konservatoriya mühitinə uyğunlaşmaq asan deyil. İstənilən halda səviyyə fərqi var idi. Buna baxmayaraq, mən cəmi 1 ilə müsabiqənin proqramını öyrəndim. Heç kim gözləmirdi ki, mən o müsabiqədə hansısa yeri qazana bilim, nəinki 3-cü yer. Əslində bu böyük müvəffəqiyyət idi. Müsabiqədən sonra burda solo konsertim oldu. 1990-cı il faciəsindən sonra həmin faciəyə həsr olunan konsertə dəvət aldım. Orada F.Listin (macar bəstəkarı) ”Dəfn mərasimi” əsərini ifa elədim. Daha sonra elə oldu ki, pedaqoji fəaliyyətimlə bağlı daha az səhnələrə çıxmağa başladım.

**- Sonuncu dəfə nə zaman çıxmısınız səhnəyə?**

- Sonuncu dəfə 2005-ci ildə, Elmira xanımın 80 illiyinə həsr olunmuş konsertdə çıxışım olub.

**- İfaçılıq elə bir sənətdir ki, hər gün saatlarla piano arxasında oturmaq lazımdır. Gəzmək, istirahət eləmək, dostlarla görüşmək üçün vaxt olmur. Yəni bir insanın gəzib əylənərək keçirəcəyi gənclik illəri evdə, saatlarla piano arxasında məşğul olaraq keçir. Niyə gözə aldınız bu çətinliyi?**

- Bilirsiniz, bu işə yeni başlayanda insan bilmir ki, belə çətinliklər gözləyir onu. Zaman-zaman müəllimlərin tələbi, konsert məsuliyyəti tələb edir ki, daha çox çalışasan. Əgər insanda ifaçılıq vicdanı varsa, özü də dərk edir bütün bunları. Əlbəttə, istedad və istək də özü sözünü deyir. Mən tələbələrimə də deyirəm ki, bu ”qara bədheybət”ə (pianonu göstərərək) ömrünü həsr edəcəksənsə, bəlkə də sənin heç şəxsi həyatın da olmayacaq. Çox şeylərdən məhrum olacaqsan. Mən tələbə vaxtlarımda dərslər arasındakı 2-3 saatlıq ”pəncərə”də belə evə qaçıb piano ilə məşğul olurdum. Sonra qayıdırdım dərsə. Bəlkə də bizim zamanımızda telefon, internet yox idi, ona görə saatlarla məşğul olurduq. Bilmirəm... İndi gənclərdə artıq bu sənətə maraq da yoxdur. Çünki fikirləşirlər ki, burda yaxşı maddi qazanc əldə eləmək çətindir. Ya da ki, sən ulduz olmalısan. İnanın, o da çox ağır həyatdır. Həyatın hava limanı və konsert salonu arasında keçir. O cür ifaçılar çox zaman qastrollarda olduqları şəhərləri gəzməyə belə fürsət tapmırlar. Amma səhnəyə çıxıb ”soyuq ağıl və isti ürəklə” elədiyin ifadan sonra o alqışları eşitmək hər şeyi unutdurur. Hesab eləyin ki, ifaçıya dünyanı bəxş edirlər.

**- Bu günə qədər ifa elədiyiniz əsərlər arasında hansını daha çox zövq alaraq ifa etmisiniz?**

- Bilirsiniz, bir az çətin sualdır. Hansı əsəri ki səhnədə ifa edəcəksən, onu məcbursan sevməyə. Çünki ayrı cür onu yaxşı ifa etmək mümkün deyil. Məcbursan ki, o əsərin tarixini, bəstəkarını öyrənəsən. Həmişə tələbələrimə də deyirəm ki, ifa eləmək nota baxmaq deyil. Sən bəstəkarın bioqrafiyasını, əsərin yazılma tarixini, niyə, hansı təəssürat altında yazıldığını bilməlisən. Ona görə də hansı əsəri daha çox sevdiyimi dəqiq bilmirəm. Amma Şopenin əsərlərinə daha çox meyilliyəm. Onun demək olar ki, iri həcmli əsərlərinin çoxunu ifa etmişəm. Raxmaninovu da çox sevirəm, onun əsərlərini də çox ifa eləmişəm. İndi siz soruşdunuz bir hadisəni xatırladım: Moskvada oxuduğum illərdə Konservatoriyanın ”Kiçik Zal”ında Şopenin 4-cü balladasını çalmışdım. Zaldakı tamaşaçılar arsında dahi pianoçu Stanislav Neyqauzun bir yaxını əyləşmişdi. Konsertdən sonra o mənə yaxınlaşdı və dedi : ”Mən Stasikdən (Stanislav Neyqauz) sonra belə ballada ifası eşitməmişdim”.

**- Hər ifaçının, pedaqoqun həyatında belə şeylər olmur. Bu xatirələr bizim üçün dəyərli arxivdir...**

- Bilirsiniz, bizim Konservatoriyanın bu cür xatirələri olan böyük müəllimləri var idi. Əfsuslar olsun ki, tez həyatdan getdilər. Bu günlərdə elə o müəllimlərdən biri olan Fəridə xanım Quliyevanın 90 illik yubileyi oldu. Mən neçə illər onun rəhbərlik etdiyi kafedrada çalışmışam. Ancaq bu gün o elə vəziyyətdədir ki, nə eşidir, nə görür, nə də danışa bilir. Sadəcə, ürəyi döyünür. Rafiq Quliyev, Rafiq Atakişiyev, Zöhrab Adıgözəlov,Yuri Sabayev- bunlar hamısı vaxtından əvvəl köçdü dünyadan. Hansı ki, hamısı Moskvada təhsil almışdı. Və belə oldu ki, bu Konservatoriya pedaqoji fəaliyyət barədə lüt qaldı. İndi yeni-yeni kadrlar gəlir...

**- Səhnənin öz mistikası var. Bəzi ifaçılara görə, bu, ”səhnə məsuliyyəti”, bəzilərinə görə isə ”səhnə qorxusu”dur. Ümumiyyətlə, ifaçının səhnədən qorxması normal haldırmı?**

- Əlbəttə ki. Ümumiyyətlə, səhnədən qorxmayan ifaçı yoxdur. Hamısı qorxur səhnədən. Bu gün mənim tələbələrim də qorxurdu. Mən də bu səbəbdən zalda otura bilmədim. Yalnız son ifada rahat əyləşə bildim tamaşaçıların arasında. Yəni kim deyir ki, qorxmuram, yalan deyir. Çünki səhnə həmişə bir surpriz hazırlayır ifaçı üçün. Əgər yarım saniyəlik belə olsa ifaçının fikri yayınsa, əsər üzərindəki nəzarətini itirsə, sonra o əsəri yığıb-yığışdıra bilməyəcək. Ona görə də ifaçı diqqətli olmalıdır. İfa elə bir şeydir ki, həmin an çalırsan və uçur gedir. Aylarla bir əsərin üzərində işləyirsən, sonra bütün bu əziyyəti 4 dəqiqəlik çıxışla təqdim edirsən. Sonra da unudulur gedir...

**- Yəni bir az vəfasız sənətdir...**

- Bəli, o barədə elədir. Heç olmasa indi texnologiya var. Lent yazıları qalır. Amma yüz il bundan əvvəl elə dahi ifaçılar olub ki - Şopen, List kimi - onların ifaları əfsanə kimi danışılır sadəcə. Heç bilinmir necə ifa eləyiblər. Amma Rafaelin tablolarına indi də baxa bilirik.

**- Bəs incəsənətə aid olmayan hansısa məşğuliyyətiniz, hobbiniz varmı?**

- Avtomobillər (gülür). Səmimi deyirəm, avtomobillərlə maraqlanıram. Uşaqlıqda marka yığırdım. Məndə bir albom var, bəlkə də indi hərraca çıxarsam, böyük məbləğ təklif edərlər. Bilirsiniz, mən musiqi ilə ciddi məşğul olmağa 7-ci sinifdə başladım. İnandırım sizi, 5-ci sinfə qədər hər il musiqi müəllimi dəyişirdim. Məni futbol topu kimi ordan-ora atırdılar. Çünki 5-ci sinfə qədər not bilmirdim, nə eşidirdim onu da çalırdım. Sonra rəhmətlik atam mənə bağımıza gedərkən qatarda keçirdiyimiz bir saat yarımlıq vaxtda notları öyrətdi. Özü cərrah idi, amma not kitabı alıb notları öyrənmişdi ki, mənə də öyrətsin. Daha sonra 14-15 yaşımda özümdə maraq yarandı ifaçılığa. Yadımdadır, Zaqafqaziya müsabiqəsinə hazırlaşanda yayın isti günləri idi. Kondisionerlər də təzə-təzə çıxırdı. Atam kondisioner aldı və mən məcbur oldum pianomu keçirdim həmin otağa. O kondisioner mənim işimi qismən yüngülləşdirdi. Səhər saat 8:00-dan axşam saat 22:00-a qədər pianino ilə məşğul olurdum. Arada anam gəzməyə çıxarırdı ki, bir az hava al, yoxsa müsabiqəyə sağ çıxa bilməyəcəksən.

**- Hər hansı əsərin ilk ifaçısı olmusunuzmu?**

- Cövdət Hacıyevin ”Musiqi lövhələri” fortepiano silsiləsi var idi. Onun ilk ifaçısı mən olmuşam. O əsərin əlyazması da hazırda məndədir. Belə oldu ki, Elmira xanımın Azərbaycan bəstəkarlarına həsr olunmuş sinif konserti idi. Cövdət müəllim də konsertdən bir müddət əvvəl əsəri gətirdi. Və əsəri mən ifa elədim.

**- Məmməd Quliyevin əsas xüsusiyyəti nədir?**

- Onu deyə bilməyəcəm, amma mənfi xüsusiyyətlərimi bilirəm. Sənətimdə, işimdə hədsiz tələbkar, tərs və ”mızmızı”yam. Yaxşı xüsusiyyətlərimi də yəqin ki, tələbələrim bilər.

**Şəfaqət Məmmədova**
**ADMİU, III kurs musiqişünas**

**Bilirsiniz, bu işə yeni başlayanda insan bilmir ki, belə çətinliklər gözləyir onu. Zaman-zaman müəllimlərin tələbi, konsert məsuliyyəti tələb edir ki, daha çox çalışasan. Əgər insanda ifaçılıq vicdanı varsa, özü də dərk edir bütün bunları. Əlbəttə, istedad və istək də özü sözünü deyir. Mən tələbələrimə də deyirəm ki, bu ”qara bədheybət”ə (pianonu göstərərək) ömrünü həsr edəcəksənsə, bəlkə də sənin heç şəxsi həyatın da olmayacaq. Çox şeylərdən məhrum olacaqsan. Mən tələbə vaxtlarımda dərslər arasındakı 2-3 saatlıq ”pəncərə”də belə evə qaçıb piano ilə məşğul olurdum. Sonra qayıdırdım dərsə. Bəlkə də bizim zamanımızda telefon, internet yox idi, ona görə saatlarla məşğul olurduq. Bilmirəm...**